Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Azərbaycan tolerant dövlət olduğunu minaya düşmüş erməni olayında bir daha göstərdi...

**Tarixən Azərbaycanda qədim dövrlərdən etibarən tolerantlıq özünü büruzə verib. Məsələ ondadır ki, Azərbaycan coğrafi mövqeyinə görə Şimalla Cənubun, Şərqlə Qərbin yerləşdiyi dövlətlərin mərkəzində bir körpü rolunu oynayır. Belə münbit şəraitin, coğrafi əlverişliliyin və sair amillərin mövcudluğu ayrı-ayrı vaxtlarda dünyanın bir sıra xalqlarının Azərbaycana gəlişinə səbəb olub.**

Bunun bir sıra səbəbləri var: birinci növbədə Azərbaycanın təbii şəraiti imkan verib ki, dünyanın müxtəlif ölkələrində yaşayan xalqlar, iqtisadi imkanlarımızla yanaşı, Azərbaycan türklərinin milli mentalitetindəki istiqanlılıq, qonaqpərvərlik, qonağa, kənardan gələn insanlara isti münasibət səbəbindən yerli əhali ilə ünsiyyətlərini bu əsasda quraraq bu ərazidə yaşamağa başlasınlar. Azərbaycan müstəqillik əldə etdikdən sonra da bu siyasətini uğurla davam etdirib. Bu özünü istər müharibə, istərsə də ondan sonrakı dönəmlərdə də göstərib.

### Müharibədən cəmi 5 ay keçməsinə baxmayaraq, bu qədər mülki şəxsin minaya düşməsi…

Ermənistan silahlı qüvvələrinin ərazilərimizi minalaması səbəbindən 10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək is?g?aldan azad edilmiş? ərazilərdə mina partlayışı ilə bağlı 15-dən artıq hadisə baş verib. 30-dan çox mülki şəxs minaya düşüb. Onlardan 14 nəfər həlak olub, 16 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Müharibədən cəmi 5 ay keçməsinə baxmayaraq bu qədər mülki şəxsin minaya düşməsi Azərbaycan və bir çox dünya ölkələrini narahat edir. Lakin bütün bunlara rəğmən, Ermənistan minalanmış sahələrin xəritəsini Azərbaycana təqdim etmir. Dünya dövlətləri tərəfindən bununla bağlı çoxsaylı çağırışlar olsa da, Ermənistana birbaşa təzyiqlər göstərilmir. Beynəlxalq təşkilatlar İkinci Qarabağ müharibəsindən öncə olduğu kimi, yenə susqunluq nümayiş etdirir. Nəticədə Ermənistan da öz müharibə cinayətlərini davam etdirir.

### Ermənistan sülh istəmir

Ermənistan minalanmış ərazilərin xəritəsini gizlətməklə birinci növbədə sülhə mane olur. İkincisi isə, bu bütün beynəlxalq qanunlara, prinsiplərə zidd ir və hərbi cinayət hesab olunur. Ermənistandan fərqli olaraq, Azərbaycan tərəfi 10 noyabr razılaşmasına tam əməl edir, hətta bir sıra məsələlərdə humanistlik nümayiş etdirir. Məsələn, Ermənistan Kəlbəcərin boşaldılmasına əlavə 10 gün vaxt istədi və Azərbaycan tərəfi humanistlik göstərərək bu vaxtı verdi. Lakin eyni humanist addımları Ermənistan tərəfindən görmürük. Əksinə, Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini gizlətməklə həm daha çox insanın həlak olmasına, həm də işğaldan azad edilmiş ərazilərin bərpasını ləngitməyə çalışır.

### Azərbaycan Prezidenti: "Minalanmış sahələrin xəritələrini verməmək dinc vətəndaşları bilərəkdən ölümə məhkum etmək deməkdir"

Fevralın 26-da Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında bu məsələyə də toxunaraq bildirdi ki, ərazilərin minalanması əsas çətinlikdir: "Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Bu gün bizdə mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil. Yəni əlbəttə, burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər. Biz onların hərbi əsirlərini, həlak olanların cəsədlərini verdik. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə erməni tərəfin nümayəndələri, sülhməramlı missiya və bizim nümayəndələr birlikdə mindən çox həlak olmuş erməni hərbi qulluqçusunun cəsədlərini tapdılar və erməni tərəfə verdilər. Biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq. Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz".

### Minalanmış ərazilərin xəritəsi Azərbaycana verilməlidir - xarici ekspertlər

Xarici ekspertlər də bildirir ki, Ermənistan minalanmış ərazilərin xəritəsini Azərbaycana verməlidir, əks halda bu, hərbi cinayət hesab olunur.

Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenkonun fikirlərinə diqqət edək: "İşğaldan azad olunan ərazilərdə yüzlərlə kvadrat kilometr minalanmış ərazi var. Xəritə olmadan 30 il bundan öncə doğma yurdlarından məcburi köçkün düşmüş dinc azərbaycanlıların qayıdışının təhlükəsizliyini təmin etmək çətindir. Təəssüflər olsun ki, biz bu məsələdə Ermənistan tərəfinin xoşməramlı iradəsini görmürük. Ermənistan minalanmış ərazilərin xəritəsini vermək istəmir. Hər zaman olduğu kimi, qeyri-konstruktivlik nümayiş etdirir".

Həmçinin, bu il martın 2-də İtaliya parlamenti tərəfindən qəbul edilmiş qətnamədə Azərbaycanın minalanmış ərazilərinin xəritələrinin verilməsi tələb olunub. "Ermənistan və Azərbaycan arasında razılaşmaların yerinə yetirilməsi vəziyyəti haqqında qətnamə"də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəflər konstruktiv fəaliyyət göstərməyə dəvət olunub və bu xüsusda, minalanmış ərazilərin xəritələrinin verilməsi istənilib.

### Ermənistanın basdırdığı minalara hətta öz əsgər və zabitləri düşür...




İşğaldan azad olunmuş ərazilərdə erməni hərbçilərinə məxsus cəsədlərin qalıqlarının axtarışı zamanı Ermənistan FHN-nin dəstə komandiri minaya düşərək yaralanıb. Erməni KİV-nin verdiyi məlumata görə, hadisə Cəbrayıl rayonu ərazisində baş verib. Məlumata görə, işğal dövründə erməni hərbçilərinin basdırdığı minaya düşən dəstə komandiri sağ ayağından xəsarət alıb. Ona ilkin tibbi yardımı Azərbaycan hərbçiləri göstərib. Yaralı daha sonra Xankəndi hospitalına aparılıb və orada əməliyyat olunub. Həmin şəxsin həyatı üçün təhlükənin olmadığı bildirilir. Buradan bir daha azərbaycanlı və ermənilərin arasındakı fərq görünür. Onlar, hətta özləri basdırdıqları minaya öz zabitlərinin düşməsinə razıdırlar, nəinki minalarla bağlı xəritəni Azərbaycana təqdim etməyə.

Dünyada dini ayrıseçkiliyin gücləndiyi və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Bu gün dünya ölkələrində demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər boyu formalaşan və bir çoxlarına örnək olan xarakterik xüsusiyyətidir və bu, inkaredilməz həqiqətdir. Azərbaycanda kilsə və sinaqoqlarla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi və onlara dövlət tərəfindən lazımi dəstək verilməsi də buna əyani sübutdur. Bir çox ölkələri öz ağuşuna almış arzuolunmaz proseslərin fonunda ölkəmizdə Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi, dini dəyərlərin, tolerantlıq siyasətimizin təbliği və daha da möhkəmləndirilməsi, bu mühitin qorunub saxlanılması Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir və xalqımız bunu gündəlik həyatının hər anında hiss etməkdədir.

### Multikulturalizm və tolerantlıq Azərbaycan xalqının genetikasından irəli gəlir

Bütün bunlar bir daha sübut edir ki, mültikultralizm və tolerantlıq Azərbaycan xalqının genetikasından irəli gəlir. Minaya düşmüş erməni zabitinə Azərbaycan əsgərinin yardım etməsi bir daha sübut edir ki, biz öz ərazimizdə yaşamayan millətlərə qarşı belə ən kritik anda tolerant davrana bilirik. Ancaq təəssüf ki, bu mahiyyəti biz ermənilərdən görmürük. Biz bunu həm tarixi faktlara, həm də son müharibə və ondan sonra yaşananlara istinadən deyə bilərik. Proseslərin təhlili göstərir ki, yaranmış real vəziyyət Azərbaycanın mənafelərinin daha da güclənməsinə xidmət edir. İqtisadi tənəzzül yaşayan Ermənistanın Azərbaycanın ərazilərində mövcudluğunu qorumağa çalışdığı separatçı rejimə yardım etmək imkanından da tədricən məhrum olması Qarabağ ermənilərinin İrəvandan narazılığını xeyli artırıb. Artıq iqtisadi və sosial problemləri daha da dərinləşən Qarabağ erməniləri də öz etirazlarını ifadə etməyə başlayıblar. Hətta elə Ermənistan mediasının yazdığına görə, Qarabağ erməniləri arasında belə bir fikir sürətlə genişlənməkdədir: "Əgər Azərbaycanın tərkibində yaşasaydıq, indiki çətinliklərlə üzləşməz, belə çıxılmaz vəziyyətdə qalmazdıq". Hələlik separatçı rejim tabeliyində olan güc dəstələri vasitəsilə belə mövqedən çıxış edənlərə təzyiqlər göstərərək bu istiqamətdə fikirlərin yayılmasının qarşısını almağa çalışır. Ancaq yerli ermənilər, edilən təzyiqlərə baxmayaraq, yenidən Azərbaycanın tərkibində olmayacaqları təqdirdə daha böyük çətinliklərlə üzləşəcəklərini yaxşı başa düşürlər.

Əslində elə Ermənistanın özündə də əhalinin böyük əksəriyyəti bu problemin həllinə sevinir. Onlar anlayır ki, Qarabağ münaqişəsinin həllinin uzanması Ermənistanın regional layihələrin icrasında iştirakını əngəlləyən əsas amil olub. Qarabağ münaqişəsinin davam etməsi daha da dərinləşdirir. Deməli, münaqişənin həlli Ermənistana yalnız xeyir vermiş olacaq. Bunun üçün Ermənistan öz daxilində və qonşularla münasibətdə Azərbaycan modelini əsas götürərək hərəkət etməlidir. Bunun da yolu tolerant davranışların mənimsənilməsindən keçir. Ermənistan monoetnik dövlət siyasətindən əl çəkib, sərsəm, utopik ideyalarını kənara qoyub, qonşuları ilə normal münasibətlər qurmalıdır. Əks təqdirdə bu ölkəni bundan da böyük fəlakətlər gözləyir.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**